# SSRİ-ni dirçəldən Sabit Orucov

***Vikipediyadakı səhifəsinə istinadən***

Bu məqaləm Sovet Sosialist Respublikaları İttifaqının neft-qaz sənayesini dirçəldən və bu sahədə möhürünü vuran, bütün SSRİ məkanının 2-ci Qaz Sənayesi naziri Sabit Orucova həsr olunur.

Sabit Atababa oğlu Orucov 31 may 1912-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur.O, 33N-li ikinci dərəcəli sovet məktəbini bitirmiş və onu Ermənistandakı Şirpazlı kəndinə əhalinin savadsızlığını aradan qaldırmağa göndərmişlər. Sabit Orucov həmin illərdə çox çətin anlar yaşamışdır. Ermənistandakı milli-şovinist əhvali-ruhiyyənin tüğyan etdiyi bir zamanda hətta şagirdlər öz müəllimlərini quyuda gizlədib həyatını xilas etmişlər. 1928- 1930-cu illərdə o, Azərbaycanın Xızı kəndində kolxozçu- gənclər məktəbində müəllimlik etmişdir. S. Orucov erkən gənclik illərində özünü jurnalistikada sınamış, boksla da məşğul olmuşdur. 1930-cu ildə Sabit Orucov Azərbaycan Sənaye İnstitutuna (indiki ADNA) daxil olmuş, o, institutu Neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə əla qiymətlərlə (fərqlənmə diplomu ilə) bitirərək dağ mühəndisliyi diplomunu almışdır. 1936-1939-cu illərdə Sabit Orucov «Orconikidzeneft» trestində kompressor stansiyasında mexanik, neft mədənində usta, baş mühəndis və müdir vəzifələrində işləmişdir.

1940-cı ilin dekabrında Sabit Orucov İosif Stalinin yanında keçirilən müşavirədə iştirak etmiş, müşavirədə SSRİ-nin neft sənayesinin cari vəziyyəti müzakirə olunmuş, Moskvadan qayıdandan sonra o, yeni həvəslə və qüvvə ilə işə girişmiş, dərin neft quyularını mənimsəmək üçün orijinal aerasiya üsulu tətbiq etmiş, bu da sonralar onun namizədlik dissertasiyasının mövzusu olmuşdur. Həmin ilin yekunlarına görə 28 yaşlı Sabit Orucov Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

1945-ci ildə «Orcenikidzeneft», «26 Bakı Komissarları» və «Buzovnaneft» trestlərinin müdiri vəzifəsində işləmiş, həmin trestləri geridə qalanlar sırasından qabaqcıllar sırasına çıxarmışdır.

O, 1945-1947-ci illərdə «Azneftkombinat»ın rəis müavini, «Azneft» və «Krasnodarneft» birliklərinin baş mühəndisi işləmişdir. 1947-ci ildə Azərbaycanın həm dənizdə, həm də quruda olan perspektivli sahələrində kəşfiyyat işlərinin cəmləşdirilməsi məqsədilə «Azərneftkəşfiyyat» birliyi yaradılır və onun rəisi Sabit Orucov təyin edilir. Birliyin əsas məqsədi bütün qüvvələri yeni perspektivli neft və qaz yataqları aşkar etmək, açıq dənizə çıxmaq və oradakı iri strukturlarda neft və qaz axtarışına başlamaq idi. Bu baxımdan Neft Daşları sahəsindəki dənizin səthinəçıxan və çoxdan geoloqların diqqətini cəlb edən təbii neft sızmaları olduqca maraqlı idi. Neft Daşlarına ilk dəfə xəritəçəkmə ilə məşğul olan əfsanəvi geoloq A.Q.Əliyev, istedadlı qazma işləri təşkilatçısı Y.A.Səfərov, desant dəstəsinin rəhbəri Sabit Orucov və digər mütəxəssislər 14 noyabr 1948-ci ildə kiçik «Pobeda» gəmisində «Qara Daşlar» «fəth» etməyə səy göstərdilər və böyük çətinliklə onlar kiçik adalardan birinəçıxmağa müvəffəq olurlar. Burada 1 saylıilk quyunun yeri təyin edilir və qazılır. Quyudan neft fontan vurur, gündəlik neft hasilatı 100 tondan artıq olur. Sabit Orucovun təklif və təkidi nəticəsində 1949-cu ildə dənizdə neft və qazçıxarmanın intensiv inkişafını nəzərə alaraq, «Dənizneft- qazlayihə» DETLİ, Dərnəgül metal-konstruksiya zavodu, Zığda stasionar özül və estakadaların quraşdırılması bazası, dənizdə tikinti və təchizat məsələlərinin təşkilinə kömək məqsədilə «Xəzərdənizneftdonanma» tresti yaradılır. Onun göstərişi əsasında «lzmayil» neftdaşıyıcı kranquraşdırma gəmisi kimi istifadə edilməsi Neft Daşları rayonunda dənizin dərinliyi 10-20 m olan sahələrində estakada və özüllərin tikilməsini sürətləndirməyə imkan vermişdir. 1949-cu ildə Sabit Orucov mühəndis Yusif Səfərovla birlikdə dənizin 20 metr dərinliyi üçün «MOS» sisteminin özlüyünü, dayaq blokunu layihələndirirlər, layihə dərhal tətbiq olunur. Sabit Orucovun bilavasitə rəhbərliyi altında dənizdə hidrotexniki işlərin uğurla aparılmasına kömək edən nəqliyyat və xüsusi neft-mədən donanması yaradılır. 1950-ci ildə«Azneft»in donanması artıq 32 ədəd üzən vasitələrindən ibarət idi.



Neft Daşlarında bütün zəruri sənaye və yaşayış infrastrukturlu mədən tikintisi başlanılır, Sabit Orucov və onun həmfikir həmkarlarının təklif etdikləri texniki yeniliklər o qədər orijinal və ölkəyə lazım idi ki, onlar görkəmli nailiyyətlər kimi qəbul edilirdilər. Dənizdə neft çıxarmanın pioneri olan Azərbaycanda bu sahənin infrastrukturunun inkişafına yönəldilmiş elmi-praktik ideyaların həyata keçirilməsinə geniş meydan açılmışdı. Bunun da ən yüksək zirvəsində Sabit Orucov durdu. Lakin onun adı həmin vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş Mir Cəfər Bağırovun qara siyahısında hallanır. O, hələ 1946-cı ildə «Azneft» birliyinin baş mühəndisi vəzifəsində işlədiyi zaman gözlənilmədən «xalq düşmənləri» sırasına düşür. Yalnız o vaxtlar SSRİ-nin cənub- qərb rayonlarının neft sənayesi «narkomu» olan N.N.Baybakovun işə qarışmasından sonra Sabit Orucov Moskvada «Baş cənubqərb neftçıxarma» şöbəsinə keçirilir və beləliklə, onun həyatı xilas edilir. İkinci dəfə o, M.C.Bağırovun qəzəbinə 1949-cu ildə tuş gəlir. Dənizdə baş vermiş şiddətli firtma zamanı bir neçə özül dağılır. M.C.Bağırov baş vermiş hadisədə Sabit Orucovu günahlandırır. Moskvadan gəlmiş Neft Sənaye nazirinin müavini V.A.Kalamkarovun rəhbərlik etdiyi komissiya Sabit Orucovun günahsızlığını sübut edir. 1949-cu ilin dekabr ayında Xəzər dənizində neft və qaz yataqlarının kəşfiyyatı, neft-qaz çıxarılması və mədənlərin yaradılması məsələlərinin həlli üçün Bakıda «Azərdənizneft» birliyi, Moskvada SSRİ Neft Sənayesi Nazirliyi nəzdində «Başdənizneft» İdarəsi yaradılır və onun rəisi, eyni zamanda nazir müavini S.A.Orucov təyin edilir. Dörd il ərzində Xəzərdə neft hasilatı 1949-cu ildəki 797 min ton əvəzinə 2 mln. 984 min ton olur. Neft Daşları yatağının kəşf olunması və mənimsənilməsinə görə 1951-ci ildə böyük bir qrup mütəxəssislərlə birlikdə Sabit Orucova 1-ci dərəcəli Dövlət mükafatı verilmişdir. 1955-1957-ci illərdə Sabit Orucov SSRİ Neft Sənayesi nazirinin müavini işləyir. Bu illər ərzində o, neft və qaz yataqlarının işlənməsi sahəsində tədqiqat işləri aparmış, hava vurmaqla (aerasiya ilə) dərin neft quyularının mənimsənilməsi üsulunu işləyib hazırlamış, dəniz neft yataqlarının, o cümlədən Neft Daşlarındakı yataqların kəşfi və mənimsənilməsində bilavasitə iştirak etmiş və bir sıra iribloklu dəniz qazma əsaslarının konstruksiyasını təklif etmişdir. Onun fəal iştirakı ilə Qərbi Sibir, Orenburq vilayəti, Türkmənistan və Özbəkistanda bir sıra neft və qaz yataqları istifadəyə verilmişdir. SSRİ-də qaz sənayesinin yeni texnika ilə təchiz olunmasında, qaz hasilatının sürətlə artmasında S.Orucovun böyük xidmətləri olmuşdur. S.Orucovun rəhbərliyi altında ölkənin qaz ilə təmin edilməsində vahid sistemin inkişafı və yüksəlməsi üçün böyük işlər görülmüşdür.

Neft hasilatının artırılması, müdafiəüçün neft məhsulları və hərbi sursatların istehsalı üzrə dövlət tapşırıqlarının nümunəvi yerinə yetirilməsinə görə 30 illik yubileyində ona Lenin ordeni verilmişdir. O dövrdə SSRİ Neft Nazirliyinin «narkomu» (tərcüməsi-xalq komissarı) vəzifəsində işləyən N.K.Baybakov Sabit Atababa oğlu Orucovu Neft Bakısının ən görkəmli şəxsiyyətlərindən biri adlandırır. Daha sonar«narkom» yazırdı: «Mən onun imkanlarını bilirdim, onu ən çətin yerlərə göndərirdim. Əmin idim ki, o, öhdəsindən gələr və Sabit Atababa oğlu mənim etimadımı doğruldurdu».

1957-1959-cu illərdə S.Orucov Azərbaycan SSR-nin Xalq Təsərrüfatı Şurasının sədri və Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində işləyir. O, iki il müddətində ağır maliyyə vəziyyətində olan, öz inkişafında geridə qalmış bəzi sənaye sahələrinin fəaliyyətini canlandırır, tikintisi başa çatdırılmamış və konservasiyada olan müəssisələrin istehsalını nizama salır, Sumqayıt sənaye kompleksinə, xüsusən sintetik-kauçuk və boru prokatı zavodlarına çox diqqət yetirirdi. 1959-1962-ci illərdə Sabit Orucov SSRİ Nazirlər Soveti nəzdində Azərbaycan SSR Nazirlər Sovetinin daimi nümayəndəsi vəzifəsində işləyir. Mətbuat materiallarından məlumdur ki, hələ neft sənayesi nazirinin müavini olduğu dövrdə o, yanacaq-energetika kompleksinin tərkibinə dair dəqiq dövlət siyasətinin zəruriliyinə qəti əmin olmuşdu və hesab edirdi ki, neft sənayesinin «Sovnarxoz» mənzillərinə bölünməsi onun inkişafına böyük maneədir. Onun bu əsaslı fikri təsdiqləndi. Bütöv bir nəhəng sahə dağıdıldı. Onun yenidən bərpası üçün isə neftçi Sabit Orucovun biliyi və təcrübəsi, analitik düşüncəsi, perspektivi proqnozlaşdırma bacarığı lazım idi.

1965-1972-ci illər Sabit Orucov SSRİ-nin Neft Sənayesi nazirinin birinci müavini vəzifəsində işləyir. O, bu illər ərzində öz ideyalarını geniş tətbiq etmək imkanı qazanır, neftçıxarma sənayesinin inkişafı üzrə elmi əsaslandırılmış proqram və layihələr işləyib hazırlayır. Onun tərəfindən neft və qaz yataqlarının işlənməsi üzrə vahid mərkəzi komissiya yaradılır. O, alimlərin və istehsalatçıların iştirakı ilə neftçıxarmanın problemləri üzrə vaxtaşırı ümumittifaqmiqyaslı müşavirə təşkil olunmasının təşəbbüskarı idi. Onün rəhbərliyi altında layihələr hazırlanmış və kəşflər olmuş, Şimali Qafqazda, Tatarıstanda, Başqırdıstanda, Volqa-Ural hövzəsi ərazisində, Qərbi Sibirdə neft laylarının işlənməsi təkmilləşdirilmişdir. S.Orucovun ideyaları indi də Azərbaycanda, Qazaxıstanda, Ukraynada, Belarusiyada, Qərbi Sibirdə həyata keçirilir. O, 1967-ci ildə neftçilərin VIII Ümumdünya Konqresində (Meksika) əsas məruzə ilə «Dünyada neftçıxarma sahəsində inkişaf» adlı mövzuda məruzə etmişdir. Sabit Orucov məruzəsində bütün kontinentlərdən 43 ölkədə neftçıxarmanın vəziyyətinin dərin analizini vermiş, dünya üzrə bütünlükdə ümumiləşdirilmiş göstəriciləri nümayiş etdirmişdir. Arxiv sənədləri, şəxsi yaradıcılıq irsi, onun elmi əsərlərinin müasirləri tərəfindən qiymətləndirilməsi belə nəticə çıxarmağa imkan verir ki, S.Orucov üçün hər bir əvvəlki nailiyyət onun təbiətinin novatorluğunu izah etməkdən ötrü start meydançası idi. Həmin dövr üçün bu bəzi hallarda riskli idi. Onun bilavasitə iştirakı və rəhbərliyi altında öz geoloji quruluşuna görə iki müxtəlif işləmədə olan neft-qaz yatağında müxtəlif vaxtlarda təcrübi-sənaye yeraltı nüvə partlayışı həyata keçirilmişdi. Bu eksperimentin nəticələri sovet və dünya elmi üçün yeraltı nüvə partlayışlarının karbonatlı kollektorlara və onlarda olan karbohidrogenlərə, fəaliyyətdə olan mədənlərin qurğularına və kommunikasiyalara təsirinin xarakteri haqqında qiymətli elmi-texniki informasiya almağa imkan verdi. 1972-ci ildə Sabit Orucov SSRİ Qaz Sənaye naziri təyin edildi vəömrünün axırına kimi bu vəzifədə işlədi. S.A.Orucov ölkənin bütün qaz təsərrüfatını öyrənərək, sahənin köhnə idarəetmə sistemini dağıdır, nazirliyin bütün strukturlarında və bölmələrində inqilabi dəyişikliklər edir, beləliklə, ölkənin bütün qaz sənayesi əsaslı elmi-texniki yeniliklərə nail olur. Nəticədə təbii qazın çıxarılması, saxlanılması, emalı, nəqli və istehsalçıya etibarlı, itkisiz və keyfiyyətləçatdırılmas dünya miqyasında analoqu olmayan vahid bir sistemdə birləşir. Qərbi Sibirin, Tümenin və Orenburqun nəhəng qaz yataqlarının istifadəyə verilməsilə, çox güclü magistral qaz xətlərinin çəkilməsilə, qazın emalı və saxlanılması müəssisələrinin inkişaf etmiş strukturunun, həmçinin mərkəzləşdirilmiş idarəetmə sisteminin yaradılması iləöz miqyasına və istehsalat həcminə görə dünyada analoqu olmayan SSRİ-nin vahid qaz-təchizat şəbəkəsi yaradılır. Bu nəhəng işlərin əsasını fədakar rəhbər, istedadlı təşkilatçı, görkəmli alim, mühəndis və qeyri-adi insan - Sabit Atababa oğlu Orucov qoymuşdur. Sabit Orucov 1981-ci ildə vaxtsız vəfat etdi. O, Moskvada Novodeviçye qəbirstanlığında dəfn olunmuşdur.

Bakışəhərində küçə, Urenqoyda yerləşən qaz hasilatı üzrə istehsalat birliyi, Nadım şəhərində sahilyanı küçə, "Kaspmorneftqazprom" birliyinə məxsus gəmi Sabit Orucovun adını daşıyır.

Moskvada həyatının son illərini yaşadığı binanın fasadında xatirə lövhəsi vurulmuşdur (heykəltəraş: L.Petruşin, memar: M. Katkova).

Özbəkistanın Xarəzm vilayətinin Xivəşəhərində S.Orucov adına rusdilli məktəb fəaliyyət göstərir.

Belə insanları xatırlamaq və daim yadda saxlamaq lazımdır ki, oxucu belə Azərbaycan türkləri barədə məlumat toplayanda təəcüblənməsin. Sabit Orucov tanınmağa dəyər şəxsiyyətdir. Çünki, onun bir sözü var idi: "Yaşasın Neft dənizli Azərbaycan!" Biz də bu kəlamı alqışlayırıq.

***30.04.2020***



***Sevindik NƏSİBOĞLU***